YAZI-YOZU

Paxıllığın ən murdar və təhlükəli növü alimlər arasındakıdar. Əsl elm isə bu qanundan kənardır, çünki onu işlətmək, sərf etmək, başqalarını öyrətmək, hamının malı etmək onun artmasına və kamala çatmasına səbəb olar, deməli, elmdə paxıllıq ehtiyacdan deyil, adamın zatından doğar. Filosoflar dünyanı uzun bir adamın üzərinə çəkilən qısa yorğana bənzətmişlər: başını örtəndə ayağına çatmaz, ayağını örtəndə başına…

Hər şeydə ortalığı təyin edə bilmək, yalnız bərabərlik nəticəsində olur ki, buna da «vicdan səsi» (ilahi namus) deyilir…

N.Tusi

Firuz MUSTAFA

FOTOQRAF

(monopyes)

Fotostudiya. Foto çəkilişi üçün zəruri avadanlıq və əşyalar gözə dəyir. Hər tərəfdə fotoşəkillər. Müxtəlif ölçülü şəkillər karton, ya faner lövhələrə yapışdırılıb, divarlara söykədilib, tavandan asılıb. Hətta, yerə atılmış şəkillər də var. Gur işıq tədricən, asta-asta şəkillərin üstündə gəzir...

Tamaşa boyu digər şəkillər görünüb "gözdən itsə" də, iri planda çəkilmiş üç fotoşəkil axıra qədər göz önündə qalır: ikisi kişi, birisə qadın şəkli... Əslində, tamaşanın əsas qəhrəmanları elə bu üç nəfərdir. Tamaşanın finalında həmin sıraya dödrüncü şəkil də əlavə olunur, fotoqrafın özünün böyüdülmüş fotosu. Yeri gəlmişkən, həmin fotoların əvvəlcə arxası, sonra isə avand

üzü görünür.

Kənarda masa və stul qoyulub. Masanın altında qantellər, idman daşları.

Fotoqraf. Eşidirsiz? Hə, toy karvanı keçir. Ta məni toylara kimdir çağıran? Halbuki mənsiz bir toy olmazdı. İndi zəmanə dəyişib. Elə adamlar da başqa cür olub. Yox, bəlkə də heç dəyişməyiblər, elə əvvəldən bu cür olublar.

Mən həmişə belə hesab etmişəm ki, hər adam sirli bir adadır. O adada nələr yoxdur ki? Bu gizlinlərə bələd olmaq heç də asan məsələ deyil. Bəlkə də düşünürsüz ki, insanı yaxşı tanımaq üçün gərək onunla yaxın ünsiyyətdə, olasan. Gərək onunla qonşuluq, dostluq edəsən. Onunla yol yoldaşı olasan, min bir sınaqdan, hoqqadan çıxasan. Yox, mən qətiyyən belə düşünmürəm. Ən müəmmalı, ən sirli adamın belə, şəkli kağız üzərinə köçəndən sonra mənə çox şey bəlli olur. Elə ki, fotokağızı duruldurum, lentdəki sifətlər mənimçün yavaş-yavaş aydınlaşır. Sifətlər açıldıqca o sifətlərin gizlətmək istədiyi sirlər də öz-özünə üzə çıxır. Mənim bu fotoaparatım- mənim ürəkoxuyanımdır. O, mənə bütün sirləri faş eləyir.

İndi bəlkə də heç kəsə lazım olmayan bu şəkillərə bir diqqətlə baxın.

Bəzən deyirlər ki, insanın xasiyyəti ömrü boyu təkmilləşir. Boş şeydir. Bax bu fotoları mən illər boyu çəkmişəm. Mən səmimi-qəlbdən deyə bilərəm ki, bu şəkillərdəki adamların hamısı uşaqlıqda necə olublarsa, böyüyəndən sonra da elə o cür qalıblar. Lovğası lovğa, fağırı fağır, həyasızı yenə həyasız, acgözü yenə də acgözdür... *(Fotoaparatı mizin üstünə qoyur).* Xeyr, həyat heç nəyi dəyişmir. Dəyişən, ola bilsin ki, vaxt olur. Adamların ağlı isə doğulan andan ölən günəcən eyni qəlibdə qalır. Bax, elə misal üçün, götürək bu xanımı.

(Şəklin arxası üzünə çevrilir. Qadın şəkli görsənir).

Yəqin ki, tanıdınız. Bəli, bəli, müğənnidir.

(Melodiya səslənir).

Bu xanımın elə uşaqlıqdan oxumağa böyük həvəsi vardı.

Bax, bu da onun uşaqlıq şəkli...

Anası çəkdirmişdi bu şəkli. Elə o vaxtdan bilinirdi ki, bu xanım müğənni olacaq. Bir baxın, qaşları necə çatılıb? Hər şeyə maraqla baxır. Özü də, yadımdadır, çox zil səslə ağlayırdı... Bu da onun sonrakı dövrdə, məktəbli vaxtının şəklidir.

(Böyüdülmüş fotonu göstərir).

Bax, qız burada xorda oxuyur.

(Ani melodiya, xor musiqisi səslənir).

O, həmin dövrdə hələ başqalarından tam fərqlənmirdi. Xorda necə fərqlənəsən ki? Ağzında “xor” deyirsən.

Burda kvartetdə oxuyur. Dörd nəfərdirlər...

Burada triodu. Üç nəfər. Bunu da özüm çəkmişəm.

Bu, duet oxuyan zaman çəkilmiş şəkildir.

Burdaca təkdir. Solo oxuyur.

Bu xanım get-gedə üzüyuxarı dırmandı. Əlbəttə, sənət yolları ilə.

Məncə, siz onun sonrakı taleyi ilə tanışsınız. Yox? Tanış deyilsiz? Onda, əgər lazım gəlsə, mən bəzi mətləblərə aydınlıq gətirə bilərəm. “Lazım gəlsə”... Axı birdən lazım gəlməyə də bilər.

Heç bilmirəm bu xanımı niyə xatırladım? Yəqin ona görə ki, şəkli göz qabağındadır. Yox, təkcə ona görə yox... *(Eyhamla).* Təbii ki, başqa səbəblər də var.

Bu şəkil xanımın yerə-göyə meydan oxuyan vaxtı çəkilib. Bunu da mən özüm çəkmişəm... Bəh-bəh-bəh... İki göz istəyir tamaşa eləsin. İlahi, o nə göz-qaş, nə ağız-burun, nə dodaq, nə yanaq, nə buxaqdır? Hələ onun çöhrəsini, vucudunu bəzəyən bu

ziynət, bu ləl-cəvahirat... Mərmər çiyin, gümüş bilək... Ta mən hansı sözləri deyim ki, onun şəklini tamamlasın? Bu şəkil sinədən yuxarı çəkilib. Amma başqa bir şəkildə mən onu boyaboy, ayaq üstə, konsert zamanı çəkmişəm.

(Qadının ayaq üstə çəkilmiş fotosuna işarə edir).

Burda bir adam, daha doğrusu, bir şəkil də var. Bəli, düz tapmısız, xanımın yanındakı bu adam onun əridir. Daha doğrusu, əriydi.

(Barmağının işarəsi ilə şəklin arxası avand üzünə çevrilir).

Onlar, yəni gələcək müğənni ilə gələcək skripkaçı hələ yeniyetmə ikən bir-birinə vurulmuşdular. Qonşu idilər. Qız onu dəlicəsinə sevirdi. Oğlan təbiətən çox sakit idi. Mən onların şəklini dəfələrlə çəkmişəm. O vaxt mən onlara zarafatla "qoşa göyərçin" deyirdim.

Gizlətmirəm, mən həm qızı dinləməkdən zövq alırdım, həm də oğlanı. Axı hər necə olsa, özüm də sənət adamıyam.

(Melodiya səslənir).

Yadımdadır, onların toyunu televiziyalar çəkdi. Bu toyun sədası az qala dünyaya yayıldı. Qəzetlər təzə bəylə gəlinin şəklini tirajladı. İnsafən, demək lazımdır ki, qəzetlərdə gedən şəkillərin əksərini mən çəkmişdim. Nişan və toy günü çəkilən fotoların müəllifi də məndim.

(Bəylə gəlinin toy şəkilləri göstərilir).

Mən çoxdanın fotoqrafıyam. Şəhərin köhnə kişiləri məni yaxşı tanıyır. Amma mən özümü heç də"köhnəlmiş" hesab etmirəm. Hələ görüləsi işlərim çoxdur...

(Qantelləri yerdən götürüb oynadır, təzədən yerinə qoyur).

Deyəsən, ortaya başqa söz düşdü... söhbət bu "qoşa göyərçinlərdən" gedirdi axı... Müğənni ilə skripkaçının şəklini sonralar da bir neçə dəfə çəkmişəm.

(Qadının ifasında ariya səslənir...)

Çoxunun ürəyində tonqal çatan bu xanım qısa bir zamanda bütün məclislərin sevimlisinə çevrilmişdi.

(Qadının şəklini diqqətlə süzüb,ayağa durur, əli ilə onun sifətini sığallayır).

Vəzifəli adamlar öz uşaqlarının məclisinə onu dəvət edirdilər. Başqa yerləri deyə bilmərəm, amma bizim şəhərdə toylar əsl teatra bənzəyir. Orada rəqqasələr də, klounlar da, sirk ustaları da, gözbağlayıcılar da iştirak edir. Görünür, elə toylarımız toydan daha çox teatra oxşadığı üçündür ki, bizim şəhərin adamları teatra getmir. Qızın sorağı tez-tez yaxın-uzaq xaricdən eşidilməyə başladı. İndi az qala bütün şəhər əhli öz sənətkarı ilə fəxr edirdi. Onun özünün cangüdənləri vardı. Hələ şəxsi parikmaxerini, masajistini, sürücüsünü, aşbazını, dərzisini, həkimini... demirəm. Soruşa bilərsiz ki, mən bunları haradan bilirdim? Axı bütün dünyada olduğu kimi bu şəhərdə də hamının işi fotoqrafa düşür. Bütün yollar fotostudiyadan keçir. Az qala mən də onun şəxsi fotoqrafına çevrilmişdim. Müğənninin gözəlliyi ilə şöhrəti favaritlərin sayı ilə bir yerdə artırdı.

Amma skripkaçı... O, əsl bədbəxt idi.

(Ani olaraq skripaçın şəkli önündə dayanır. Sonra cəld hərəkətlə gəzişir).

O vaxtlar mənim iş yerimə, yəni bu studiyaya gələnlər çox olurdu. Sizdən nə gizlədim, xüsusən, bu xanımın yolu buraya düşəndə mənim çiçəyim çırtlayırdı. Axı mənim çörəyim həmişə şəkildən çıxıb.Onunla şəkil çəkdirmək istəyən fanatların sayı-hesabı olmurdu. Müştərilərim arasında hər cür adam olub. Kimi sənəd üçün şəkil çəkdirirdi, kimi xatirə üçün. Kollektiv şəkillər də olurdu, venetka şəkilləri də...

Lap elə bu cür şəkillər də olurdu.

(Dekorativ, qurama atın üstündə çəkilmiş "başsız", "silahlı atlı" şəklini göstərir).

Bu "atın" üstündə şəkil çəkdirənlərin də sayı az deyildi.

(Şəklin o biri üzünə keçib deşikdən baxır, sonra yenə "öz yerinə" qayıdır).

Bir vaxtlar buraya, mənim studiyama bir adam gəlib-getməyə başladı.

Bax, bu da həmin adam. Onun sifəti sizə tanış gəlmir ki? Bu, onun əvvəlki şəklidir. İnanmırsınız?

Bu, da onun sonralar çəkdiyim fotosudur.

(Şəkil avand üzünə çevrilir, kişi fotosu görünür.. Fotoqraf əlini şəklə sarı uzadır).

Mən adamların əsl sifətini ilk baxışda görə bilmirəm. Elə söhbət, ünsiyyət əsnasında da onların içi mənə qaranlıq qalır. Amma şəkil çəkiləndən sonra hər şeyi aydın görürəm. Mənim fotoaparatım - mənim rentgenimdir .

(Fotoaparatı götürüb yenidən zalda əyləşənlərin fotosunu çəkir).

(Əlini kişinin əvvəllər çəkilmiş fotosuna uzadır).

Bəlkə də inanmazsınız, ilk vaxtlar onun sifəti bax bu cür idi: çopur, özü də qapqara. Qaşları pırpız, gözlərinin içi bulanıq, qulaqları yekə, burnu əyri, saçları seyrək. Bədəni də palıd kötüyü kimi tösmərək.

Deyirəm, Allah-təala bəzən adamın bir yerindən alıb, əvəzində yüz yerindən verir. Bu sir-sifət yiyəsinin bəxti at üstündə idi. Özünün at ilxısı, cıdır yeri-ippadromu, mehtərləri vardı. Yeri gəlmişkən, o da at üstə şəkil çəkdirməyi xoşlardı. Amma əsl at üstə. Ta bunlar kimi yalançı, dekorativ at üstə yox.

(At üstə əyləşmiş məğrur görünüşlü kişi fotosunu göstərir).

Sən demə, bu sir-sifətin yiyəsi çox böyük ürək sahibi imiş. Mən onunla dostlaşdım. Hərdən gedib fermasındakı atların bukletlərini hazırlayırdım. O, ayıq adam idi. Özü də ki, dediyim kimi, pullu, səxavətli. Əlini hara atırdısa oradan pul neft kimi fontan vururdu. Mən yaxşı bilirdim ki, bu adamın öz sir-sifətindən qətiyyən xoşu gəlmir. Bu qədər pulun ola, özün də adam içinə bu cür idbar, əntər sifətlə çıxasan? Mən ona bir dəfə gözləmədiyi bir hədiyyə elədim. Necə? Bu pullu, xeyirxah, səxavətli biznesmenin şəklinə xeylı "əl gəzdirdim". "Retuş" deyilən bir söz var, bilmirəm bunu hər kəs anlayır, ya yox? Yəni bu "retuş" vasitəsi ilə sir-sifətdəki bütün artıq şeylər atılır, yerdə yalnız lazım olan şeylər qalır.

Bəli, mən öz dostumun sifətini ehtiramla, diqqətlə "retuş" etdim.

İndi özünüz deyin, o adam hara, bu hara?

(Eyni adamın yan-yana qoyulmuş şəkillərinə işarə edir. Şəkillər fotoqrafın barmağının ani işarəsi ilə hərəkətə gəlir).

Görürsüzmü bu şəkillər bir-birindən necə fərqlənir?

Həmin şəkli iri, parlaq bir çərçivəyə salıb fotostudiyamın ən gözəgəlimli yerindən asdım.

Bəzən adamlar, adamın özünə yox, onun fotosuna aşiq olurlar. Adətən bu, kişilərdə belə olur. Axı bildiyiniz kimi, kişilər gözüynən, qadınlarsa qulağıynan sevirlər.

Amma bu dəfə tam əksinə oldu. Yəni qadın gözüynən, kişi isə qulağıynan sevməyə başladı.

Mən bilirdim ki, bu kişi müğənni xanımın səsinin vurğunudur. Ona görə də hər dəfə yolu buralara düşəndə xanımın səsi yazılmış lenti sələndirirdim. Kişi bu səsdən feyziyab olurdu. Özüyçün kef edirdi. Müğənni ilə bağlı qısa suallar verirdi. Tədricən hiss etməyə başladım ki, kişini təkcə qadının səsi yox, elə onun özü də maraqlandırır.

(Melodiya səslənir.)

Düzünü deyim ki, elə mən özüm də studiyada tək olanda bu gözəl səsə ləzzətlə qulaq asırdım.

Nə gizlədim, onun mahnılarını eşidəndə

həmişə qollarım qağayı qanadı kimi yanlara açılır. Özümü saxlaya bilməyirəm. Belə musiqiyə necə rəqs etməyəsən?

(Musiqi səslənir. Kişi şıdırğı rəqs edir. Az sonra musiqi başa çatır. Kişi diqqətlə şəkillərə baxır).

Onu deyim ki, qadın da şəkil çəkdirməyə gələndə bu kişinin səklinə etinasız qalmırdı. Xüsusən, onun at üstündəki şəklinə maraqla tamaşa edirdi. O, atlarla maraqlanmağa başladı. Məncə, onu atdan çox, atların sahibi maraqlandırırdı.

(Maşın siqnalı eşidilir)

Şükür, deyəsən yenə toy olacaq. Toy maşınları siqnal verir...

(*Həzin melodiya səslənir).*

Sizə bir şey deyim. Bəlkə də inanmazsınız: get-gedə kişinin sifəti açılmağa başladı, onun üz-gözü mənim "retuş" etdiyim fotoya oxşamağa başladı.

Əlbəttə, o, pullu adam idi. Amma, inanın ki, bu sir-sifəti təkcə pul "düzəltməmişdi". Dünyada izahı bilinməyən çox mətləblər var; mən buna öz varlığım kimi inanıram. Bir fikir verin: adam var ki, gəncliyində yaraşıqlı olur, vaxt keçdikcə kifirləşir. Amma bəzən əksinə olur. Adama oxşamayanın birisi illər keçdikcə gözəlləşir. Yəni bu, insanın daxili ilə bağlı olan məsələdir. İçdə nə varsa gec-tez üzə çıxır. İnsanın içində isə ya işıq olur, ya da zülmət.

Elə həmin vaxtlar qulağıma bəzi-para söhbətlər də çatmağa başladı. Deyirdilər ki, müğənni xanım öz əriynən, yəni skripkaçı ilə yola getmir. Onsuz da mən bunun gec-tez belə olacağını əvvəlcədən bilirdim. Axı hər şey göz qabağındadır.

(Şəkilləri göstərir. Oğlan "at" belində).

Bəzən qadın uğrunda kişilərin, bəzənsə kişi uğrunda qadınların müharibəsi gedir. Bilmək istəsəniz, bu döyüşdə qadınlar daha çox ağıla, yəni hiyləyə, məkrə arxalanır. Kişilərsə gücə, iradəyə arxayın olur; yəni yumruqlar, əzələlər ağlı üstələyir.

Bəli, günlərin bir günü müğənni ilə atçı-biznesmenin ailə qurduğunu eşitdim. Təəccüblənmədim. Mən əmin idim ki, onlar, yəni bu təzə evlənənlər xoşbəxdirlər. Çünki onlar bir-birini məhz bu şəkillərdən sevmişdilər. İnanmırsız?

Elə günün bu vaxtı olardı. Yeni evlənənlər mənim studiyama təşrif buyurdular. Hiss olunurdu ki, onların hər ikisi bəxtəvərdir. Bunu özləri də etiraf etdilər. Söhbətlərindən belə məlum oldu ki, onlar bal ayında, səyahətdə, istirahətdə olublar...

Onlar məni cıdıra dəvət etdilər. Qız ayağını üzəngiyə qoyub alov rəngli bir atın belınə tullandı. At şahə qalxdı. Qorxudan ürəyimə vicvicə düşdü. Gözlərimi yumdum. Düşündüm ki, bu saat böyük bir qanıqaralıq olacaq, at qızı yerə çırpacaq. Tappıltı eşidib, qorxa-qorxa gözlərimi açdım. Gördüm ki, at uçur, qız da atın belində... O, yüyəndən bərk-bərk yapışıb atın yalmanına yatmışdı. Ürəyimdə skripkaçının qarasınca dedim ki, bax yüyəni belə saxlayarlar, ay əfəl oğlu əfəl.

Bir bunun mindiyi ata baxın. "At" nə "at"...

(Skripkaçının mindiyi "atın" fotosunu göstərir. Oğlan çiynində "tüfəng" dekorativ "atı" "çapır").

At bax belə olar. Hələ bir atlıya bax.

(*Qızın canlı at belindəki şəklinə yaxınlaşıb əli ilə tumar çəkir).*

Elə o vaxt çəkmişəm bu şəkli. Bəzən o, öz konsertlərinin afişasına bu şəkli vururdu.

Onlar arada mənə baş çəkirdilər. Məndən razılıq edirdilər. Mən də onlardan çox razı idim.

Atçı-biznesmen həm pullu, həm sadə, həm də səxavətli adam idi. Mən bilirəm, o, yetim olmuşdu, min bir əzab-əziyyətlə böyümüşdü. Pulun gücünü də yaxşı bilirdi. Amma, necə deyərlər, əli həmişə cibində idi. Kasıblara əl tutmaqdan məmnun olurdu. Başqasının, lap elə doğmaca atasının

pulunu göyə sovurmağa nə var ki? Oğul odur öz pulunu xərcləsin. Həyatda min bir əziyyətlə qazandığı pulu xərcləməkdən ləzzət alan adamlar az olur. Bəzən deyirlər ki, pul adamı qudurdur. Yox, qətiyyən elə deyil. O qudurğanlıq həmin adamlarla birgə doğulur. Yəni elə əvvəldən içlərində bir qudurğanlıq olur. Sonralar o qudurğanlıq da onlarla birgə böyüyür... Amma pullar dostumu qudurda bilməmişdi, əksinə, onun çox incə, həssas cəhətlərini üzə çıxartmışdı.

Bəziləri bu pullu adamın xoşbəxt bir ailəni dağıtdığını zənn edirdi. Amma, onsuz da o keçmiş ailə yüz yerdən çat vermişdi. O "qoşa göyərçinlər" gec-tez ayrılacaqdı. Bir özünüz düşünün, nə vaxtacan xoşbəxtliyi oynamaq olar? Bu saxta "sevgi"nin bir sonu olmalı idi ya yox?

(Müğənni xanımın foto-sessiyası göstərilir. Şəkillər səhnə boyu "axıb" gedir).

Az qala bütün şəhər onlardan danışırdı. Çoxlu şayiələr yaranırdı. Amma heç bir söz-söhbət onların vecinə deyildi. İndi qadının konsertlərinin çoxu xaricdə təşkil olunurdu. O, dünyanın məşhur "ulduzları" ilə duet oxuyurdu. Yeni ailə qurandan sonra şəhərdəki şənliklərə də getmirdi. Bu qədər var-dövlətin qabağında nə toy, nə nişan, nə yubiley? Qadına şöhrət, kişiyə isə sərvət lazım idi ki, buna da onlar çoxdan nail olmuşdular. İndi bu ər-arvad şöhrətin və sərvətin işığında qoşa ulduz kimi par-par yanırdı.

Onlara qibtə etməmək mümkün deyildi. Hər il ad günlərini bir ölkədə keçirirdilər. Bir dəfə də mənim ad günüm idi. Bunu haradansa, kimdənsə eşidib bilmişdilər. Axşam yanıma gəldilər. Restorana dəvət etdilər, razı olmadım. Bilirdim ki, onsuz da hədiyyələri olacaq. Restoran mənim nəyimə lazımdır?.. Elə düşündüyüm kimi də oldu. Mənə bahalı hədiyyə bağışladılar. Yox, deməyəcəm o nə hədiyyə idi... Sifariş verdilər, yaxınlıqdakı restorandan yemək-içmək gəldi. Mənim yaşadığım illər qədər şam yandırdılar. Yaxşıca yeyib-içdik. Sonra biz üçlükdə xanımın repertuarından bir mahnı oxuduq.

(Musiqi. Trio oxuyur. Fotoqraf yan otaqdan məcməyini gətirib masanın üstünə qoyur, onun içindəki şamları yandırır).

Bu gün müğənni xanımın ad günüdür. Mən onun belə əlamətdar gününü keçirməyi özümə borc bildim. Bu şamları da ona görə yandırıram.

Nə vaxtsa, haradasa belə bir fikir eşitmişəm: ideya, ağıl heç də kişilərin başında yaranmır; onlar əvvəlcə qadınların bətnində yaranır, sonra kişilərin başına köçür. Bəlkə də bunları heç yerdən eşitməmişəm, elə öz fikrimdir. Mən yenə bu fikirdəyəm. Zaman onların ağlı ilə hesablaşırdı. Zaman onların zamanı idi.

Qəribədir, onları səbəbsiz-filansız qınayanların sayı-hesabı yox idi. Bilmirəm nədəndir, bəzi adamlar başqalarının xoşbəxtliyini həzm edə bilmir. Görünür, bir çoxlarını "yaşadan" elə bu cür "dərdlərdir". Onların işığı çoxlarının gözünü kor etməkdə idi...

Xatırımdadır, bir dəfə studiyaya bəstəboy, yumrusifət, qarnı irəli çıxmış bir kişi gəldi. Qoltuğunda iri, meşin qovluq vardı. O, maraqla divardakı şəkillərə baxmağa başladı. Bu köstəbək elə ilk baxışdan ürəyimə yatmadı. Bir xeyli ordan-burdan danışdı. Nəhayət, mən onun nə istədiyini soruşdum. O, qovluğundan bir şəkil çıxarıb mənə uzatdı; soruşdu ki, gör bunu böyütmək olarmı? Şəklə baxmadan dedim ki, qoy hələlik qalsın burada, sonra baxaram. Doğrusu, bu iyrənc, zəvzək adamdan canımı tez qurtarmaq istəyirdim. O, qovluğundan çıxartdığı ikinci şəkli də mənə sarı uzadıb gülə-gülə soruşdu: "Gör bu bədəni o başa calaq emək olarmı?" Mən təəccüblə onun uzünə baxdım: "Necə yəni "calaq?" O, yenə hırıldadı: "Məncə, siz buna "montaj" deyirsiz".

Əyilib kişinin əlindəki şəkillərə baxdım. Biri müğənni xanımın şəkli idi. Xatırladım ki, bu şəkli nə vaxtsa mən özüm çəkmişəm. İkinci şəkildəsə yataqda uzanıb məst olan

gözəl, zərif, lüt qadın bədəni təsvir olunmuşdu. İnsafən, çox gözəl bir şəkildi. Bir xeyli şəklə, yəni lüt bədənə baxdım. Bu, peşəkar fotoqrafın çəkib yüksək səviyyədə "retuş" etdiyi bir fotoydu. Mən sanki dahiyanə rəssam tərəfindən fırçaya alınmış bir sənət əsərinə tamaşa edirdim. Amma daxilən hirs məni boğurdu. Bu şəkli gətirən yaramazın sözündən belə çıxırdı ki, mən bu iki şəkli montaj etməli, onları "birləşdirməli", sözün qısası, öz dostumun arvadının lüt şəklini "çəkməliyəm". Mən özümü saxlaya bilməyib bu köstəbəyin üstünə qışqırdım: "Rədd ol burdan, yaramaz!". O, çaşıb qaldı. Cınqırını da çıxara bilmədi. Bəlkə də cavab qaytarsaydı, onu əzişdirəcəkdim. O, tez-tələsik qovluğunu qoltuğuna vurub studiyadan az qala qaça-qaça çıxdı.

Hə, dedim axı, mən bir müddət sonra bayaq haqqında söhbət açdığım tipin şəklini çəkəsi oldum.

Bir dəfə küçədə atəş səsləri eşitdim. Əvvəlcə yerimdə donub qaldım.

(Sürəkli atəş səsləri eşidilir. Fotoqraf baş vermiş dəhşətli hadisəni imitasiya edirmiş kimi, cəld yerə sərilir, sonra yavaş-yavaş ayağa durub pəncərədən bayıra boylanır. Fotoaparatı götürüb irəli yeriyir).

Düz studiyanın qapısı ağzında bir nəfər yerə sərilmişdi. Asfaltın üstündə qan gölməçəsi vardı. Hiss olunurdu ki, güllələnən adam gəbərib. Peşə intuisiyam üstün gəldi, tez onun şəklini çəkdim.

(Bir neçə kadr çəkir).

Səhərisi gün bu adamın fotosunu kağız üzərində görən kimi tanıdım: ölən, daha doğrusu, öldürülən adam vaxtilə mənə müğənni xanımın şəklini "montaj" təklifini edən tösmərək tipin özü idi. Doğrusunu deyim ki, mən bu qətldən o qədər də sarsılmadım. Görünür, bu dünyada hərə özünün layiq olduğu cəzanı gec ya tez almalıdır... Doğrusu, o vaxtlar şəhərdə bu cür qətllər tez-tez olurdu.

Biznesmenin işləri günü-gündən daha da genişlənir, çiçəklənirdi. İndi təkcə özünün və arvadının yox, elə atlarının da şöhrəti aləmə meydan oxuyurdu.

Amma nə edəsən ki, bu tale deyilən şey bizim hər birimizi ən gözlənilməz "sürprizlərlə" "mükafatlandırır". Bir gün sevinir, o birisi gün kədərlənirik. Bir gün toy olur, bir gün yas. İnsan öz xoşbəxtliyini min bir əziyyətlə əldə edir, amma bədbəxtlik onun yanına öz ayağı ilə gəlib çıxır.

(Gərgin musiqi sədası eşidilir).

Yadımdadır, studiyanın pəncərələri önündə bir neçə dəfə şübhəli kölgələr görünüb yox oldu. Mən nədənsə narahat idim. Sanki kənardan, bəlkə də elə öz içimdən gələn bir səs məni ehtiyatlı olmağa çağırırdı. Sanki mənə nəyinsə baş verəcəyi əyan olmuşdu. O kölgələr yenə peyda olanda mən diqqət yetirdim.

(Divarda kölgələr oynaşır).

Onlar üç nəfər idi. Kölgələr tezliklə zülmətə qovuşdular. Bir dəfə də tutqun-yağışlı bir gündə göründülər. Həmin "kölgələrdən" biri özünü içəri saldı. Üzünə baxdım. Boz plaşın başlığı sifətini tamamilə örtmüşdü. Təkcə qıyılmış, zülmət kimi qapqara gözləri işıldayırdı. Heç nə soruşmadım. O, divardakı şəkillərə göz gəzdirib astadan dedi: "Yağış yağmasaydı bir şəkil çəkdirərdim". Ay səni öləsən. Guya ki, şəkil çəkdirməyə gəlib. Gör bir nə vaxtdan sülənir, sürünürlər bu tərəfdə. Mən yenə susdum. Hiss etdim ki, onun baxışları xoşbəxt cütlüyün şəklinin üstündə donub qaldı. "Kölgələr" yox olandan sonra studiyanın qapısını bağlayıb mən də evə getdim. Nəsə özümü yaxşı hiss etmirdim.

O "kölgələr" bir daha gözümə dəymədi. Amma az sonra şəhərdə dəhşətli hadisələr baş verdi. Mənə elə gəlir ki, həmin hadisələrin o "kölgələrlə" bir bağlılğı vardı...

Dostum bir müddət görünmədi. Mən bir qədər narahat oldum. Amma bunu nəsə pis yerə yoza bilməzdim. Axı o, pullu, tanınmış biznesmen idi, dünyanın bu üzündən vurub o üzündən çıxırdı. Yəqin ki, arvadını

qoltuğuna vurub hansı məmləkətəsə uçub getmişdi. Aradan bir xeyli keçdi. Bir dəfə axşamüstü studiyamın qapısı açıldı. İki nəfər kandarda göründü. Aman Allah, az qala mən onları tanımayacaqdım. Bunlar ki, mənim dostlarım idi: xoşbəxt cütlük. Yox, indi onların sifətində bəxtəvərlikdən əsər-əlamət qalmamışdı. Hər ikisi sazaq vurmuş çiçək kimi solmuşdu. Kişinin sifəti qaralmış, "retuş" olmazdan qabaqkı vəziyyətə düşmüşdü. Qadının əzəlki işıqlı çöhrəsində yalnız mənim kimi təcrübəli fotoqrafların görə biləcəyi qırışlar görsənir, tutqun kölgələr dolaşırdı. Mən əvvəlcə onlarla bir az zarafat etmək istədim. Dedim ki, istirahət zonasından gələnlərə oxşayırsız. Hiss etdim ki, zarafatım yerinə düşməyib. Araya bir yalquzaq sükutu çökdü. Sonra gördüm ki, qadının gözləri dolub. Kişi isə zorla gülümsəyirdi. Görəsən, bunlara nə olmuşdu?

Kofe dəmlədim. İstədim şəkillərini çəkəm. Razı olmadılar. Şəkillik halları yox idi. Deyəsən, bunlara nəsə olmuşdu. Hissiyyatım məni aldatmayıbmış.

(Sürəkli atəş səsləri eşidilir. Fotoqraf əvvəlcə yerə sinir, sonra qəddini düzəldib ehtiyatla pəncərədən bayıra baxır. Yanıb-sönən işıqların şəfəqləri divarda əks olunur. Fotoqraf əllərini bir-birinə vurub qəhqəhə çəkir).

Paho... Elə bildim ki, yenə atışmadır. Sən demə, toy atəşfəşanlığıdır. Fişəng atırlar. Elə adam var ki, havaya boş güllə atmaqla təskinlik tapır; bu, lap bəzi qorxaq "cəngavərlərin" yalançı, dekorativ at minməyinə bənzəyir.

(Fotoqraf əlini "başsız atlı" şəklinə sarı uzadıb başını təəssüf və istehza ilə bulayır).

Hə, söhbət dostlarımdan gedir... Mən yalnız gecə keçəndən sonra onların, daha doğrusu kişinin, əslində isə elə onların hər ikisinin, başına gələn faciə ilə tanış ola bildim. Əvvəlcə heç nə demək istəmirdilər. Sonra kişi bir stəkan arağı məzəsiz-zadsız başına çəkəndən sonra baş vermişləri, daha doğrusu başına gələnləri, qısaca danışdı. Sən demə, onu quldurlar oğurlayıbmış. O, həmin gün arvadının səsini yazdırmaq üçün səsyazma studiyasına gedibmiş. Qadın səsini yazdıran zaman o, mənim studiyama, bura gəlirmiş. Səsyazma studiyası qonşuluqda, küçənin o biri tinində yerləşir. Mənsə tərslikdən həmin gün burada deyildim... Amma olacağa çarə yoxdur.

Qəfildən üç nəfər əlisilahlı ona hücüm edib. Deyiblər ki, guya onun həbs olunması barədə sanksiya var. "Cinayətinin" maddəsini də deyiblər: külli miqdarda dövlət vəsaitini mənimsəmək, vergidən yayınma. O, əvvəlcə deyilənə inansa da, az sonra bu "maddələrin" uydurma olduğunu başa düşüb. Onu maşına basaraq gözünü sarıyıblar, şəhərdən kənarda olan bir bağ evinə aparıblar.

Arvad səsyazma studiyasından çıxıb ərini heç yerdə tapmayıb. Maşın da elə küçənin kənarında qalıbmış. Yazıq qadın tez özünü evə çatdırıb. Elə bu vaxt telefon zəng çalıb. Qadın dəstəyi götürüb.

(Divarda görünən oynaq-titrək, uzun insan kölgələrini gərgin musiqi sədası müşayiət edir).

Zəng vuranlar ərini oğurlayan quldurlar imiş. Quldurbaşı telefonda kişinin ailəsindən, yəni arvadından külli miqdarda pul tələb edib. Əlbəttə, dostum kasıb adam deyildi. Amma tələb olunan pul onun bütün varidatından dəfələrlə çox idi. Ərlə arvadı telefon vasitəsi ilə calaşdırıblar. Ər onların, yəni o quldurların təzyiqi ilə arvadına yalvar-yaxar edib. Deyib ki, onun oğurlanması barədə rəsmi dövlət qurumlarına heç bir məlumat verməsin. Bundan sonra ona çox əziyyət veriblər. Kişi yenə təzyiq və təhdid altında bir neçə dəfə arvadı ilə danışıb. Onu öldürməklə hədələyiblər. O da məcbur olub arvadından xahiş edib ki, olan-qalan nəyi varsa dəyər-dəymazinə satıb onu bu cəhənnəmdən xilas etsin. Yazıq qadın. Bütün var-yoxunu, daş-qaşını təcili satıb, tanış-bilişlərdən xeyli borc alıb, tələb olunan

məbləği toplayıb. Sonra əvvəlcədən sövdələşdikləri kimi, şəhərdən uzaq bir yerdə quldurlarla görüşüb, pulu onlara verərək ərini xilas edib.

(Pauza).

Onlar bu baş verənlər barədə ilk dəfə mənə danışdılar. Axı mən onların yaxın dostu idim. Mən onlara dedim ki, bütün bu baş verənlər barədə lazımi yerlərə məlumat versinlər. Kişi nədənsə razı olmadı. Deyəsən, onu möhkəm qorxutmuşdular.

Bilirsiz məni ən çox üzən nə idi? Bu hadisədən sonra dostumun insanlara inamının yox olması. Axı o, daim əliaçıq, səxavətli, insanlara çətin gündə əl tutan bir iş adamı olmuşdu. Bu xeyirxah insan, öz başına gələn bu müdhiş faciənin konkret səbəbini heç cür axtarıb tapa bilmirdi.

Onlar çıxıb gedəndən sonra mən uzun müddət özümə gələ bilmədim. İnsanların bu dərəcədə qeyri-insani olması mənə hədsiz dərəcədə təsir eləmişdi.

Ta onlar gur məclislərdə az-az görünürdülər.

Zaman insanın astarını üzünə çevirən yeganə qüvvədir.

Dostum arabir mənim yanıma gəlir, yeni yaratdığı atçılıq təsərrüfatının kataloqunu hazırlayırdı. Deyəsən, işləri yavaş-yavaş qaydasına düşürdü. Onun arvadı təzədən toylara getməyə başlamışdı. Yadımdadır, müğənni xanım sonuncu dəfə çisənli bir payız günü mənim yanıma gəldi. Əvvəlcə bir az ordan-burdan danışdı. İnamla dedi ki, irəliki şöhrət, sərvət yenə qayıdacaq. Mən onun belə nikbin danışmağından xeyli məmnun oldum. Sonra xanım bir neçə pozada şəkil çəkdirib getdi. Necə deyərlər, həyat davam edir, öz məcrasına qayıdırdı.

Amma, sən demə, faciənin böyüyü hələ irəlidə imiş.

Bir gün qəzetlər yazdı ki, şəhərdə imkanlı bir iş adamının həyat yoldaşı oğurlanıb. Dalağım sancdı. Tezliklə hər şey faş oldu. Sən demə, məşhur müğənni xanım quldurlar tərəfindən oğurlanıb, əvəzində ərindən külli miqdarda pul tələb olunur.

Bu dəfə qadının ağlı sayəsində oğrular tez ifşa olundu. Hadisə belə olubmuş: üç nəfər idmançı məşhur müğənnini oğurlayıb maşına basır, naməlum istiqamətə aparırlar. Hər şey əvvəliki cinayət ssenarisində olduğu kimi baş verib. Quldurlar ərlə arvad arasında telefon əlaqəsi yaradıblar. Yazıq kişi yenə pul tədarükünə başlamaq istəyib. Oğrular qadına əvvəlcədən öz ərini yola gətirmək haqda təlimat keçiblərmiş. Amma dünyanın işlərinə bir bax: bu zərif məxluq telefonla öz ərinə deyib ki, "mən hazırda bizim var-dövlətimizi ələ keçirən, vaxtilə səni oğurlayan quldurların əlindəyəm. Onsuz da bizi talan ediblər, heç nəyimiz yoxdur. Qorxma, lazım olan yerə məlumat ver".

Qadının bu cür iddialı danışığından sonra oğru-killerlər cəld telefonu qadının əlindən qapıblar.

Yox, indi mən deyə bimərəm ki, dostum qorxaq adam idi. Sadəcə, o, öz xanımını sevən, onun yolunda hər cəfaya dözməyə hazır olan iradəli bir adamdı.

Bizdə vətən yolunda könüllü qurban getmək istəyənlər azdır. Amma ailə yolunda ölümə gedənlər... Beləlləri çoxdur. Mənim biznesmen dostum da öz arvadı yolunda ölümə getməyə hazır idi.

Qadının bu cəsarətli çağırışından sonra kişi cürətlənib əlaqədar yerlərə müraciət edib.

Bəzən bu cür qadınlar haqda deyirlər ki, o, kişi kimi qadındır. Mən bu bənzətməni sevmirəm. Mən həmişə düşünmüşəm ki, qadının kişiyə bənzəməsi, kişinin qadına bənzəməsi qədər eybəcərdir. Ən axmaq bənzətmə budur: filankəs kişi kimi qadındır... Müğənni xanım əsl qadın idi. Özü də mərd, cəsur və gözəl.

(Qadının şəkli fotoqrafın əlinin işarəsi ilə yavaş-yavaş yanan şamların arxasından

aşağıya doğru, yanan şamların qarşısına sarı enir).

Quldurlar vaxtilə kişini oğurlayan bandanın üzvləri imiş. Görünür, dişi bir dəfə qana batan canavarlar sürüyə dadanan kimi, bu alçaqlar da həmin ailədən əl çəkmək niyyətində deyilmiş.

Yəqin ki, ağlınıza gəldi: xanım məhz mənim studıyamdan çıxarkən oğurlanmışdı. Hadisə mənim iş yerimin həndəvərində baş vermişdi. Fakt budur ki, xanım oğurlanmamışdan bir neçə dəqiqə əvvəl mənim studiyamda olmuşdu...

Bu cinayətdə əli ola biləcək bütün şübhəli adamlar istintaqa cəlb olundu.

(Fotoqraf əyilib şamları üfürərək söndürür).

Sonra həmin quldurların məhkəməsi oldu. Sən demə, bir qrup illərdən bəri keçmiş bir idmançının rəhbərliyi altında insan oğurluğu ilə məşğul olurmuş.

Əslində, elə mən özüm də keçmiş idmançıyam. Amma bunun mətləbə nə dəxli? Yox ey, elə-belə deyirəm bunu.

(Qanteli götürüb nəsə düşünür, tərəddüdlə əvvəlki yerinə qoyur. Turnikdən yapışıb diqqətlə irəli baxır).

Amma düzünü bilmək istəsəniz, mən elə ilk gündən bu müdhiş cinayətin kim tərəfindən sifariş verildiyini və kim tərəfindən icra olunduğunu yaxşı bilirdim. Sifarışçi-keçmiş idmançı idi. İcraçılar isə onun yanındakı "cangüdənlər" idi. Mən onların kölgəsini vaxtilə öz fotostudiyamın həndəvərində görmüşdüm. Cinayəti məhz həmin "kölgələr" törətmişdi.

(Şəklin arxası üzünə çevrilir. Boyaboy çəkilmiş nəhəng kişi fotosu görsənir. Həmin şəkildəki adam fotoqrafın özünə oxşayır).

Deyilənə görə, bu adam, daha doğrusu quldur, mənə oxşayır. Sizi deyə bilmərəm, şəxsən mən elə bir oxşarlıq görmürəm.

(O, nəhəng fotonun yanında dayanır. Onların hər ikisi (foto və fotoqraf) demək olar ki, eyni boydadır).

Hadisələrin sonrakı davamı yəqin ki, hər birinizə məlumdur. Yox? Bəyəm mətbuatı izləmirsiz, televizora baxmırsız? Hə, bildim, sadəcə, vaxtınız yoxdur. Onda vaxt tapıb məni izləyin. Gələn görüşdə hər şeyi yerli-yataqlı danışaram. Deyəsən, siz məni eşitmirsiz? Eşidirsiz? Amma mən sizi eşitmirəm.

(Tamaşa zamanı çəkilmiş şəkillər göstərilir. Fotolarda zalda əyləşən tamaşaçılar əks olunub).

Özünüzü tanıdınız? Siz burda şəklə dönmüsüz.

(Maşın siqnalı eşidilir).

Yenə toy?

(Bütün şəkillər "yoxa çıxır", yığışdırılır).

Bu gün yas yoxdur. Yalnız toy karvanları keçir.

(O, cəld əyilib yerdən qanteli götürür. Arxadakı qapıya yaxınlaşır. Qanteli var gücü ilə qapıya çırpır. Uzaqdan yenə atəş səsləri eşidilir. O, qapını yumruqlayır).

Ehey, açın qapını... Eşidirsiniz? Qapını açın.

(Melodiya. Xor oxuyur. Qapı açılmır. Fotoqraf qayıdıb stula çökür, başını əllləri arasına alır).